HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 30 SENTYABR 2019-CU İL/ №018 (98)

# Yeni YOL

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

2



ÜÇ MEYMUN VƏ YA BIÇAQ, HAKİMİYYƏT, TƏRİF

3



İSLAM VƏ TƏHSİL

4



1+4=ALLAH KƏRİMDİR

6



İNSANLIQ LİBASI OLMAYANLARI ELM LİBASI BÜRÜYƏ BİLMƏZ

## SALOME ZURABİŞVİLİ: "REGİONDA SÜLH OLMADAN QLOBAL ÇƏTİNLİKLƏRİN ÖHDƏSİNDƏN GƏLMƏK MÜMKÜN DEYİL"



"Gürcüstan olduqca çətin regionda əsas sabitlik adalarından biridir". Bunu prezident Salome Zurabişvili BMT Baş Assambleyasının 74-cü sessiyasında çıxışı zamanı bildirib.

O deyib ki, Gürcüstan demokratik ölkələrdən biridir və iqtisadi-sosial cəhətdən inkişaf edir.

"Biz kiçik millət olsaq da, həmrəyliyin vacibliyini anlayırıq. Mövqeyimizi nəzərə alaraq, biz bilirik ki, sülh olmadan qlobal çətinliklərin öhdəsindən gəlməyin mümkünsüz olduğu regionun ayrılmaz hissəsiyik", - deyə prezident bildirib.

Dövlət başçısının sözlərinə görə, qlobal çətinliklər hərtərəfli təhlükə kimi qəbul olunacağı halda, aradan qaldırıla bilər.

"Müasir dünya olduqca mürəkkəbdir və bu dünyanın çağırışlarına reaksiya vermək də çətindir. Daha sistemli yanaşma formalaşdırmaq və bütün mənzərəni anlamağa ehtiyac var", - S.Zurabişvili deyib.

## GÜRCÜSTAN VƏ RUSİYA XARİCİ İŞLƏR NAZİRLƏRİ GÖRÜŞÜBLƏR



"Rusiyanın xarici işlər naziri Sergey Lavrovla görüşdən öncə biz avropalı və strateji tərəfdaşlarımızla məsləhətləşmələr aparmışıq", - deyə Gürcüstanın xarici işlər naziri David Zalkaliani bildirib.

Onun sözlərinə görə, rusiyalı həmkarı ilə görüş əhəmiyyətli addım olub: "Bu görüş Rusiya Federasiyası ilə birbaşa danışıq aparmaq üçün ilk imkan olub".

XİN başçısı bildirib ki, görüşdə Gürcüstan ərazilərinin işğaldan azad edilməsi, qanunsuz sərhədləşmə, həmçinin Rusiya-Gürcüstan münasibətlərinin ən problemli məsələləri və Cenevrə danışıqlar formatı da müzakirə olunub.

D.Zalkaliani vurğulayıb ki, rusiyalı həmkarı ilə keçirdiyi görüş barədə beynəlxalq tərəfdaşlar məlumatlandırılacaq və vəziyyətin deeskalasiyası üçün atılacaq addımlar barədə müzakirələr davam etdiriləcək.

Qeyd edək ki, D.Zalkaliani və S.Lavrov arasında görüş sentyabrın 26-sı BMT Baş Assambleyasının Nyu Yorkda keçirilən 74-cü sessiyası çərçivəsində İsveçrənin təşəbbüsü və təşkilatçılığı ilə baş tutub. Bu, Rusiya ilə Gürcüstan arasında diplomatik əlaqələr kəsildikdən sonra ən yüksək səviyyədə keçirilən ilk görüşdür.

## GÜRCÜSTANIN BAŞ NAZİRİ APARATINA YENİ RƏHBƏR TƏYİN OLUNUB



Gürcüstanın daxili işlər nazirinin keçmiş müavini Natia Mezvrişvili hökumət administrasiyasının aparat rəhbəri təyin olunub.

O, bu vəzifədə Giorgi Çoladzeni əvəzləyib. G.Çoladze sentyabrın 11-də istefa verib.

N.Mezvrişvili 2017-ci ildən DİN rəhbərinin müavini vəzifəsini tutub.

Qeyd edək ki, ölkənin hökumət administrasiyasının aparatı strukturu ötən ilin iyulunda yaradılıb. Baş nazirin aparatına ictimaiyyətlə əlaqələr, protokol və xarici əlaqələr üzrə şöbələr tabedir.

## OMBUDSMAN: "AZƏRBAYCANLILARIN YÜKSƏK VƏZİFƏLƏRDƏ TƏMSİLÇİLİYİ MİNİMAL SƏVİYYƏDƏDİR"



"Ötən il də Marneulidə milli azlıq nümayəndələrinin yüksək vəzifələrdə təmsilçiliyi minimal səviyyədə olub". Bu barədə Gürcüstan ombudsmanı Nino Lomcarianın 2018-ci il üzrə insan haqları ilə bağlı parlamentə təqdim etdiyi hesabatında bildirilib.

Sənəddə qeyd olunub ki, 2014-cü ildə ölkədə aparılan son siyahıyaalmaya əsasən, Marneuli əhalisi 104 300 nəfər təşkil edib: "Bunların 83,77 faizini azərbaycanlılar, 8,58 faizini gürcülər, 6,99 faizini isə ermənilər təşkil edib. Bu fonda Marneuli bələdiyyəsinin meriyasında 8 xidmətdən birinin rəhbəri etnik azlıq nümayəndəsidir. Beş komissiya rəhbərlərinin yalnız biri, sakrebulo bürosunun 11 üzvünün də yalnız biri milli azlıqları təmsil edir".

N.Lomcaria parlamentdə çıxışında deyib ki, milli azlıqların qərar qəbuletmə prosesində iştirakı üçün heç bir effektiv addım atılmayıb: "Bizim müşahidələrimiz və aldığımız müraciətlər göstərir ki, ölkədə etnik və irqi ayrı-seçkilik ciddi problem olaraq qalır".

İnsan haqları üzrə müvəkkil vurğulayıb ki, milli azlıqların təhsili, dövlət dilinin tədrisi, onlara məxsus mədəni irsin qorunması ilə bağlı vacib məsələlər problemli olaraq qalmaqdadır.



## ÜÇ MEYMUN VƏ YA BIÇAQ, HAKİMİYYƏT, TƏRİF

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

“Tərif əsl fikirlərini gizlədənlərin söylədikləri yalandır”. Yazını yunan filosofu Platonun sözləri ilə ona görə başlayıram ki, uzun-uzadı giriş etmədən birbaşa mətləbə keçim.

İnsan təbiəti tərifə meyillidir, bu öz yerində, amma məsələyə etnik prizmadan baxanda biz azərbaycanlıların tərifi daha çox sevdiyini, tənqidə dözümsüz olduğunu görürük. Biz tərifllənməyi də sevirik, tərifləməyi də. Tənqidə gəldikdə isə, tənqidlə təhqiri qarışıq salırıq və bizdə polemika əvəzinə həmişə dava düşür, “milli, mənəvi dəyərlər düşməni”, “xalq düşməni” və bu kimi damğalar vurulur. Biz alternativ fikri axıra kimi dinləyə, oxuya bilmirik, qaldı ki, onu qəbul edək. Biz “əsl fikirlərimizi” gizlədirik ki, özümüzə əlavə düşmən qazanmayaq, “hörmətdən” düşməyək, problemlərimizi artırmayaq, işimizi itirməyək və sair. Ümumiyyətlə, bizdə hamı eyni cür fikirləşməlidir, fərqli fikirləşdinsə deməli satılmısan, kimsə səni alıb, maliyyələşdirib, yad (xarici) ünsürsən və daha nələr, nələr. Elə ki, bir tənqid eşidirik və ya oxuyuruq, başlayırıq təşvişə düşməyə, narahat olmağa, yuxumuz qaçır, iştahımız pozulur, təzyiqimiz qalxır, tənqidçinin ağzını yummaq üçün kütləvi şəkildə səfərbər olub kökündə, nəslində arxeoloji qazıntılara başlayıb araşdırma aparırıq ki, onu “ne prav” çıxarıb “razborkaya” çağıraq, kütləvi şəkildə linç edək.

Bir neçə dəfə qəzetimizdə də mənasız tərif yazılarını çap etmədiyimizi bildirmişik. Tərif yazıları göndərənlərin sayı azalsa da, tərif yazıları oxumaq istəyənlərin sayı yetərincə imiş sən demə. Çox təəssüf. Mədhiyyə janrının bu həvəskarları qəzeti “yaxşı şeylərdən” yazmamaqda, “görülən işləri” tərifləməməkdə suçlayırlar. Görünən dağa bələdçi lazım deyil onsuz da. Yalan yerə tərifləməklə heç nə yaxşı olmayacaq, halva-halva deməklə ağız şirin olmadığı kimi. Əgər tərifləməklə bütün problemlər həll olunacaqsa, gəlin səhərdən-axşama kimi televiziyalarda, qəzetlərdə, jurnallarda, tribunalarda, çayxanalarda bir-birimizi tərifləyək. Bəlkə doğrudan da nəsə dəyişə?.. Bəlkə hamımız gürcü dilini bilirik desək doğrudan da möcüzə baş verəcək və hamımız gürcü dilində danışmağa başlayacağıq və ya erkən evlilik azərbaycanlılar arasında sıfır faizdir desək bu doğrudan da belə olacaq və yaxud azərbaycanlılar bu ölkənin tam hüquqlu vətəndaşlarıdır, heç bir problemləri yoxdur, hamı yağ-bal içində firavan həyat yaşayır, biz hamıdan daha savadlıyıq, bizim içimizdə pis insanlar, rüşvətxorlar, qumarbazlar, adını yaza bilməyən təhsilsizlər, savadsız müəllimlər, satqın siyasətçilər, öz mənafeyi üçün millətin adından istifadə edənlər, tanışlıqla işə düzələnlər, vəzifəsinə, puluna görə insanlara yaltaqlananlar, çayxanalarda ömür çürüdənlər, ictimai yerdə özünü apara bilməyənlər (siyahını özünüz uzadın) yoxdur?.. Bizdə hər şey tərifə layiqdir, tənqid olunası heç nəyimiz qalmayıb? Əksinə, fikir adamlarının da dediyi kimi, bir insanı məhv etmək istəyirsənsə onu çoxlu-çoxlu tərifləmək lazımdır. Tənqiddən yox, tərifdən təşvişə düşmək, qorxmaq lazımdır əslində.

Sizə şişirdilmiş içi boş tərif lazımdırsa o zaman səhvən bu qəzeti əlinizə alıb oxuyursunuz. Biz “şərdən” özümüzü müdafiə etmək üçün qəzetlə gözümüzü, qulağımızı, ağzımızı bağlayaraq görməməzlik, eşitməməzlik və susmaqla “üç meymun” prinsipinə heç vaxt əməl etməyəcəyik.

Səhv etmirəmsə monqol atalar sözüdür, deyir ki, dünyada üç şey təhlükəlidir: bıçaq uşaq əlində, hakimiyyət axmaq əlində və tərif yaltaq dilində. Uşağın əlindəki bıçaqdan, axmağın əlindəki hakimiyyətdən, yaltağın dilindəki tərifdən qorunmaq diləyi ilə.

## NİNO LOMCARİA: “ERKƏN NİKAHLA BAĞLI PROBLEM YALNIZ ETNİK AZLIQLARIN MƏSKUNLAŞDIĞI BÖLGƏLƏRDƏ YAYILMAYIB”

“Gürcüstanda erkən nikahla bağlı problem yalnız etnik azlıqların məskunlaşdığı bölgələrdə yayılmayıb”. Bu barədə Gürcüstan ombudsmanı Nino Lomcaria parlamentdə çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, erkən nikahla bağlı ən yüksək göstərici İmereti bölgəsində qeydə alınıb.

“Tbilisi, Acarıstan, Şida Kartli, Kvemo Kartli və Samtsxe Cavaxeti bölgəsində də göstərici yüksəkdir”, - deyə ombudsman bildirib.

N.Lomcaria qeyd edib ki, Gürcüstan qanunvericiliyi ilə yetkinlik yaşına



çatmayanların rəsmi nikaha daxil olması qadağandır: “Buna baxmayaraq, yeniyetmə yaşında nişanlanma halları artıb. Bu hallara ən çox etnik azlıqların yaşadığı bölgələrdə rast gəlinir”.

## KETEVAN TSİXELAŞVİLİ: “AZƏRBAYCANLILAR ARASINDA GÜRCÜ DİLİ İLƏ BAĞLI VƏZİYYƏT ÜRƏKAÇAN DEYİL”

“Azərbaycanlıların yaşadığı kəndlərdə gürcü dili ilə bağlı vəziyyət ürəkaçan deyil və biz bunu bilirik”. Bu barədə parlamentdə “nazir saatı” formatında Gürcüstanın barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Ketevan Tsixelaşvili deputat Savalan Mirzəyevin müvafiq sualına cavab olaraq bildirib.



Onun sözlərinə görə, dövlət dili ilə bağlı problem rayon mərkəzləri və kəndlərdə, həmçinin müəyyən yaş qrupuna daxil olan şəxslər arasında da var. Dövlət naziri qeyd edib ki, 2018-ci ildə gürcü dilinin tədrisi ilə bağlı bir sıra proqramlar reallaşdırılıb.

“B2 sertifikatını 3400 nəfər alıb. 246 təlim qrupu yaradılıb ki, bunların da 151-i mobil qruplar olub. Bu qrupların cəlb olunması ilə 10 şəhər və 67 kənddə gürcü dili kursları təşkil olunub. 2019-cu ildə 118 təlim qrupu yaradılıb və 1500 nəfərə gürcü dili öyrədilir”, - deyə dövlət nazir bildirib.

K.Tsixelaşvili 2018-ci ildən başlayaraq hərbi xidmətdə olan milli azlıqları təmsil edən çağırışçılara gürcü dilinin tədrisinə başlanıldığını əlavə edib.

O, Marneuli və Dmanisidə ruhanilər üçün də gürcü dilinin tədrisi üzrə proqramın həyata keçirildiyini vurğulayıb.

Dövlət nazirinin sözlərinə görə, milli azlıqlar arasında gürcü dili ilə bağlı problemin həlli üçün kompleks yanaşma tələb olunur: “Ümid edirəm ki, gələn il bizə veriləcən suallara daha konkret cavablarımız olacaq”.

## GÜRCÜSTAN PREZİDENTİ İLƏ BAĞLI İSTİNTAQ BAŞLAYIB

Gürcüstanın Baş Prokurorluğu prezident Salome Zurabişvilinin əfvlə bağlı qərarları üzrə istintaqa başlayıb. İstintaq əfvetmə prosesində dövlət başçısının hakimiyyətdən mümkün sui-istifadə etməsi üzrə aparılır.

İstintaq Gürcüstan Cinayət Məcəlləsinin vəzifə səlahiyyətlərindən sui-istifadə maddəsinin birinci bəndi üzrə aparılır.

Bənd üzrə cərimə və ya üç ilə qədər vəzifə tutmaq və ya fəaliyyətlə məşğul olmaq hüququndan məhrum olunmaqla üç ilə qədər həbs cəzası nəzərdə tutulub.

Baş Prokurorluqdan bildirilib ki, istintaqın gedişatı və nəticələri haqqında mütəmadi olaraq ictimaiyyətə məlumat veriləcək.



Qeyd edək ki, avqustun 28-də “Mariamoba” bayramı ilə əlaqədar prezident 34 məhkumu əfv edib. Onların arasında qətlə görə məhkum olunmuş üç nəfər və axtarışda olan bir nəfər də yer alıb.

# AZƏRBAYCAN, TÜRKİYƏ VƏ GÜRCÜSTAN XİN BAŞÇILARI OKTYABR AYINDA TBİLİSİDƏ GÖRÜŞƏCƏKLƏR



Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirləri Elmar Məmmədyarov, Mövlud Çavuşoğlu və David Zalkaliani arasında növbəti 8-ci görüş oktyabr ayında Tbilisi şəhərində keçiriləcək. Bu barədə E.Məmmədyarov və D.Zalkaliani arasında Nyu-Yorkda BMT Baş Assambleyasının 74-cü sessiyası çərçivəsində baş tutan görüşdə bildirilib.

Görüşdə üçtərəfli görüşlə bağlı təşkilatı məsələlər müzakirə olunub.

Qeyd edək ki, Azərbaycan-Gürcüstan-Türkiyə formatında XİN başçılarının son 7-ci üçtərəfli görüşü ötən ilin oktyabrın 29-da İstanbul şəhərində keçirilib.

Üçtərəfli formatda ilk görüş 2012-ci ildə Türkiyənin Trabzon şəhərində baş tutub.

## MALİYYƏ NAZİRİ: GÜRCÜSTAN, TÜRKİYƏ VƏ AZƏRBAYCAN ARASINDA GÖMRÜK SAHƏSİNDƏ ÜÇTƏRƏFLİ ƏMƏKDAŞLIQ OLDUQCA VACİBDİR



“Gömrük sahəsində məhsuldar beynəlxalq və regional əməkdaşlıq ölkələrin iqtsiadi rifahı, regional iqtisadi inteqrasiya və tranzit potensialının artırılması üçün çox əhəmiyyətlidir”. Bunu maliyyə naziri İvane Maçavariani sentyabrın 27-si Gürcüstan-Türkiyə sərhədində yerləşən “Sarpi” gömrük-keçid məntəqəsində yenilənmiş infrastrukturun rəsmi açılış mərasimində deyib.

Onun sözlərinə görə, qonşu ölkələrlə elektron informasiya mübadiləsinin həyata keçirilməsi Gürcüstanın uğurlu beynəlxalq əməkdaşlığının nəticəsidir: “Bu, gömrük nəzarətinin effektivliyinin artırılması, sərhəd vasitəsilə yüklərin və nəqliyyat vasitələrinin hərəkətinin sadələşdirilməsi deməkdir”.

İ.Maçavariani bildirib ki, Gürcüstan, Türkiyə və Azərbaycan arasında gömrük sahəsində üçtərəfli əməkdaşlıq olduqca vacibdir.

“Bu əməkdaşlığa, ilk növbədə, elektron qaydada məlumat mübadiləsi daxildir. Nəqliyyat sənədlərinin uyğunlaşdırılması və rəqəmsallaşdırılması da arzuolunandır. Belə ki, bu, gömrük prosedurlarının sadələşdirilməsinə gətirib çıxaracaq”, - nazir deyib.

# “GÜRCÜSTAN HAVA YOLLARI” RUSİYA İLƏ BİRBAŞA UÇUŞLARIN BƏRPA EDİLMƏSİNİN TƏRƏFDARIDIR

“Gürcüstan hava yolları” şirkətinin baş direktoru Roman Bokeria yaydığı bəyanatda Gürcüstan və Rusiya arasında birbaşa aviauçuşların bərpasının tərəfdarı olduğunu bildirib.

“Hesab edirik ki, iki ölkə arasında uçuşlar beynəlxalq sazişə uyğun olaraq bərpa edilməlidir. Sənədin müddəalarına əsasən, Rusiya iki ölkə arasında müntəzəm hava əlaqəsini birtərəfli qaydada və əsassız olaraq dayandırmamalıdır”, - bəyanatda bildirilib.

Qeyd olunub ki, Rusiyaya uçuşların qadağan olunması “Gürcüstan hava yolları”-na likvidliklə bağlı problem yaradır və şirkəti müflisləşmə ilə üz-üzə qoyur.

Qeyd edək ki, bu yaxınlarda S.Lavrov




“Kommersant” nəşrinə müsahibəsində Rusiya və Gürcüstan arasında birbaşa hava əlaqəsinin bərpasının düzgün olacağını bildirib. İki ölkə arasında birbaşa aviauçuşlar bu il iyulun 8-dən etibarən dayandırılıb.

# İSLAM VƏ TƏHSİL



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

İsti yay günlərini arxada qoyub yağışlı, küləkli payız fəslinə keçid aldıq. Payız fəslinin gəlişiylə özünü göstərən sentyabr ayı həm də dünyada təhsil günlərinin başlanması ilə də dəyər qazanıb. Dəyər qazanıb ona görə ki, insan təhsillə yüksəlir və yaşadığı cəmiyyətə də, dünyaya da dəyər qatır. Təhsilsiz cəmiyyətlər hər zaman əziyyət çəkmiş və bilikli cəmiyyətlərin xidmətində olmağa məruz qalmışlar.

İslam dini də hər zaman təhsili təbliğ etmiş və gəncləri elmə təşviq etmişdir. İslam dini elm, öyrənmə, öyrətmə dinidir. Çünki Quranın bütün ayələrində təməl cəhətdən Hz. Peyğəmbər tərəfindən öyrənmə və onun vasitəsilə öyrətmə vardır. Hər ayə birbaşa və ya bilavasitə bir öyrənmə və öyrətmədir. Həzrət Peyğəmbər vəhy yoluyla Allahdan öyrəndiklərini müsəlmanlara öyrədərdi. Anlamadıqları xüsusları izah edər və müəyyən bir yetkinliyə çatdırana qədər təlimatçı fəaliyyətlərinə davam edərdi.

Digər tərəfdən Qurani-Kərimin ayələrinə baxdığımızda insanın özünü tanıyıb biləcəyi mövzulara baxmağı əmr edən 350, yer üzünü araşdırmağa təşviq edən 50, təhsil-tərbiyə və müsbət elmlərə işarə edən ayələrin sayının isə 750-yə qədər olduğunu görərik. Ağıl və ağılı istifadə etməyi nəzərdə tutan ayələrin sayı 65, cəhaləti, məlumatsızlığı tənqid edən ayələrin sayı isə 25-ə qədərdir. Bu da onu göstərməkdədir ki, İslam dini elm, təhsil və tərbiyəyə çox əhəmiyyət verməkdədir, cəhalət və məlumatsızlıq isə ən böyük düşmənidir. Bunun üçün təhsil-tərbiyə fəaliyyətlərinin üzərində əhəmiyyətlə durmuşdur. Çünki fərd və cəmiyyətlərin maddi və mənəvi sahələrdə yüksəlmələri və irəliləmələri ancaq möhkəm və keyfiyyətli bir təhsillə mümkündür. Bu səbəblərlə din və dünya üçün lazımlı olan məlumatları öyrənməyi fərz edən İslam dini bunu təmin edəcək olan təhsilin də mükəmməl olmasını istəyir.

Səhv etmirəmsə Həzrət Əliyə məxsus olan bir deyimdə “Övladlarınızı zamana görə tərbiyə edin” buyurulur. Yəni ki, uşaqlarınızı zamanın tələblərinə uyğun olaraq təhsilləndirin deyir. Bir müsəlman da başda dini biliklər olmaqla birlikdə xarici dillərdən tutmuş texnologiyaya qədər hər bir sahədən bilməlidir. Bir zamanlar dünyaya təhsil verən İbn Sinalar, Əl Birunilər, Nizamilər, Füzulilər, Nəsrəddin Tusilər və neçə-neçə dahilər yenə yetişməlidirlər.

Həzrət Peyğəmbərin “Elm hər bir müsəlman qadın və kişiyə fərzdir” hədisi müsəlmana bir əmr mahiyyəti daşımalıdır. Çünki bu günün gənc oğlanı sabahın atası, gənc qızı sabahın anasıdır. Bu gün özü təhsilli olmayan bir ailə sabah övladını necə təhsilləndirə və tərbiyələndirə bilər?

Yuxarıda da vurğuladığımız kimi, təhsili olmayan bir müsəlman hər zaman həm iqtisadi, həm sosioloji baxımdan qeyri-müsəlmanlara möhtac qalar ki, onlar da heç zaman müsəlmanların irəli getməsini istəməzlər.

Bəli, müsəlman bilikli, savadlı olmalıdır. Ancaq bilikli olmaq üçün alınan təhsil müsəlmanın dinini öyrənməsinə və ibadətinə də mane olmamalıdır. Müsəlman ilk öncə İslami elmləri öyrənməli, sonra digər elmlərlə məşğul olmalıdır. Çünki Allah Qurani-Kərimdə “Səni yaradan Rəbbinin adı ilə oxu” buyurur. Allahı tanımadan oxunan elmdə fayda olmaz.

Digər bir xüsus da ondan ibarətdir ki, təhsilli insan heç vaxt özünü üstün görərək digər insanları aşağılamamalıdır.

Nəticə olaraq onu demək istəyirəm ki, bu gün müsəlmanların təhsildə zəif olmalarını tənqid olaraq istifadə edənlər bilməlidirlər ki, bu İslamın deyil, müsəlman şəxslərin qüsurlarıdır. İslam hər zaman təhsili üstün tutmuş və müsəlmanları da təhsilli olmağa səsləmişdir. Məhz Peyğəmbərin özü belə Süffə məktəbini quraraq İslamın ilk tələbələrini də özü yetişdirmişdir.



# 1+4=ALLAH KƏRİMDİR

Bərabərlikdən sonra fərqli nəticələrə gəlmək olar. Bu nəticə riyaziyyatçı üçün fərqli, hüquqşünas üçün fərqli, filosof üçün fərqli olacaq. Ən sərfəlisi vətəndaş kimi nəticə axtarışında olmaq, ortaq məxrəclə nəticə çıxartmaqdır. Hər halda bərabərliyə qədər olan hissə vətəndaş üçündür, elə deyilmi? Buna qədər isə bərabərlikdən öncəkilər ("1+4") bizi bərabərləşdirə "bildimi, bilirmi, biləcəkmi?" sualına cavab axtarmalıyıq (məzmunu saxlamaqla sualı dəyişə bilərsiniz). Bu sual tələsmədiyinə görə bunu qoyub, keçək başqa suala.

Bir dəfə məşhur gürcü yazıçısı Nodar Dumbadzeni bir ingilislə tanış edirlər. Həmin ingilis söhbəti öz dilində edir, Nodar bəy deyir ki, ona deyin məktəbdə mənə alman dili öyrədirdilər. Tərcüməçinin tərcüməsindən sonra ingilis başlayır almanca danışmağa. Nodar bəy yenidən tərcüməçiyə tərəf çevrilərək xahişlə deyir: "İndi ona deyin ki, mənə öyrədirdilər, amma mən öyrənmirdim."

Bu gün bizdə vəziyyət elədir ki, öyrədirlər, öyrənirik, amma həm də öyrənə bilmirik. Başqa formada da deyə bilərik. Öyrənirik, öyrədirlər, amma həm də öyrədə bilmirlər. "Amma"ların əvvəlinə baxmasaq, alacağımız son nəticə belə olacaq: nə öyrənə bilmirik, nə də öyrədə bilmirlər. Və yaxud əksinə, lap riyaziyyatdakı kimi, toplananların yeri dəyişsə də cəm dəyişmir. Burdakı sual isə belə olacaq: "1+4=?". Bu suala hər kəs özünə necə xoş gələcəksə elə də cavab verəcək. Elə mən də dala-qabağa çox get-gəl etdikdən, badımcanla lobya arasındakı sevgi dilemmamdan qurtulduqdan (mənasız olsa belə) sonra belə qərara gəldim ki, Allah kərimdir. Sistemsizliyin ucbatından hər universitet "1+4" dediyimiz proqramın birinci ilində "çulumu sudan çıxardıram" səviyyəsində öyrədilən dillə hara getsən yarımçıqlıq zəli kimi yapışacaq. Məsələ burasındadır ki, dövlət təhsil üçün imkan yaradır, lakin imkana nəzarət etməyə sistemi yaratmaq yaddan çıxır. Hər universitet özü başlayır istədiyi kimi öyrətməyə. Bəzilərində tələbələr çullarını sudan çıxarsalar da, bəzilərində ümumiyyətlə nə suyu görən var, nə də çulu. Elə yerində vurnuxur ki, vurnuxur.

Yuxarıda xatırladığımız, dövlətin yaratdığı imkanı unutmaq sistemsizliyə xəyanət olar. Təsəvvür edin, sizə deyirlər ki, özünüzü insan kimi insan olduğunuzu hiss etmək istəyirsinizsə dil öyrənin, diliniz olsun, qaynayıb-qarışaq. Bunda dövlət də istəklidir. Qız evi razı, oğlan evi razı. Öyrən deyirlər, öyrənirik. Di gəl ki, bizi havayı öyrətmirlər. Ağızlarını açanda isə dilin öyrədilməsini dövlət səviyyəsində dəstəklədiklərini və prioritet olduğunu dönə-dönə vurğulayırlar. Yəqin elə dövlətimizin səviyyəsi də yalnız yerində dönməyə yarayır. Nə deyək?! Yarayanlardan olsun. Allah həmişə kərimdir.

***Elməddin MƏMMƏDLİ***
"Gündəlik – Gürcüstan" facebook səhifəsinin idarəçisi, Media İnkişaf Fondunun laboratoriyasının regional şəbəkəsinin üzvü.

# OMBUDSMAN: "AZƏRBAYCANDİLLİ MƏKTƏBLƏR ÜÇÜN ANA DİLİNDƏ DƏRSLİKLƏR GÜRCÜSTANDA NƏŞR OLUNMALIDIR"

Gürcüstanda Azərbaycandilli məktəblər üçün ana dili və ədəbiyyatı dərsliklərinin ölkədə nəşr olunması tövsiyə olunur.

"Report"un Gürcüstan bürosu xəbər verir ki, tövsiyəni Gürcüstan ombudsmanı ölkənin Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinə təqdim edib.

Bildirilib ki, Gürcüstanda Azərbaycan, erməni və rus dillərində ana dili və ədəbiyyatı dərsliklərinin hazırlanması və nəşr olunması üzrə iş davam etdirilməlidir.

İnsan haqları üzrə müvəkkil müvafiq dərsliklərin hazırlanması ilə çoxdilli (bilinqual) tədrisin effektivliyinin artırılmasını da tövsiyə edib.

Tövsiyələrdə təhsil islahatları çərçivəsində həyata keçirilən "yeni məktəb" modelinə milli azlıqların təhsil aldığı təhsil müəssisələrinin də daxil edilməsi yer alıb.

Ombudsman Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyini milli azlıqlara dövlət dilinin tədrisi üçün yüksək ixtisaslı müəllimlərin cəlb olunması və onlara lazımı əməkhaqqının ödənilməsini təmin etməyə çağırıb.



İnsan haqları üzrə müvəkkil milli azlıqlara məxsus mədəni irs obyektlərinin bərpası üçün effektiv tədbirlərin həyata keçirilməsini də vacib hesab edir.

Qeyd edək ki, bu tövsiyələr ombudsmanın 2017-ci il üzrə hesabatında da yer alıb.

Gürcüstanın Azərbaycandilli məktəblərini "Azərbaycan dili" və "Ədəbiyyat" dərslikləri ilə hər il Azərbaycanın Təhsil Nazirliyi təmin edir. 2019-2020-ci tədris ili üçün nazirlik Gürcüstana 21 adda 20 622 ədəd dərslik və metodik vəsait göndərib. Son 5 ildə isə Azərbaycandilli məktəblərə göndərilən dərs vəsaitlərinin sayı 81 427 ədəd təşkil edib.

# GÜRCÜSTANDA 80 AZƏRBAYCANDİLLİ MƏKTƏB VAR

Gürcüstanda 290-a yaxın məktəbdə tədris qeyri-gürcü – Azərbaycan, erməni və rus dillərində aparılır. Bu barədə Gürcüstan ombudsmanının 2018-ci il üzrə insan haqları ilə bağlı parlament hesabatında bildirilib.

Sənədə əsasən, 208 məktəb tam qeyri-gürcü dilində fəaliyyət göstərir, 76 məktəbdə isə etnik azlıqların dilində bölmələr var.

Hesabatda qeyd olunub ki, ölkədə Azərbaycandilli 80, ermənidilli 117, rusdilli 11 məktəb fəaliyyət göstərir.

Gürcü-Azərbaycandilli bölmələrin sayı 31, gürcü-Azərbaycan-rusdilli bölmələrin sayı 1, Azərbaycan-ermənidilli bölmələrin sayı 2, rus-Azərbaycandilli bölmələrin sayı isə 2 təşkil edir.

Milli azlıqların dillərində olan məktəblərdə 7741 pedaqoq müxtəlif fənlərdən dərs deyir. Azərbaycandilli məktəblərdə 3 411, ermənidilli məktəblərdə 2 985, rusdilli məktəblərdə 1372 müəllim çalışır.

Qeyri-gürcü dilli məktəblərdə təhsil alan şagirdlərin ümumi sayı 51 144 nəfər olub ki, bunların da 25018-i Azərbaycandilli məktəb və bölmələrin payına düşüb. Ermənidilli məktəb və bölmələrdə isə 13 240 nəfər təhsil alır.



Qeyd edək ki, 2014-cü ildə aparılan son siyahıyaalmaya əsasən, azərbaycanlılar Gürcüstan əhalisinin 6,3%-ni (233 min nəfər), ermənilər isə 4,5%-ni (168,1 min nəfər) təşkil edir.

# KUTAİSİDƏ YENİ UNİVERSİTET FƏALİYYƏTƏ BAŞLAYACAQ

Kutaisi şəhərində Kutaisi Beynəlxalq Universiteti tikilir. Universitet 2020-ci ildən tələbə qəbuluna başlayacaq.

Gürcüstan baş nazirinin təhsil məsələləri üzrə müşaviri Mixeil Çxenkeli bildirib ki, universitet 153 hektar ərazini əhatə edəcək. Layihənin müəlliflərinə görə, ərazisinin 80 hektarı meşəlik olacaq təhsil müəssisəsi dünyanın ən yaşıl universitetlərindən birinə çevriləcək. Altmış min tələbə üçün nəzərdə tutulmuş universitetdə Almaniya, Yaponiya, ABŞ və digər ölkələrdən dəvət olunmuş alim və mütəxəssislər mühazirələr oxuyacaq.



Universitetin rəhbəri Münhen Texniki Universitetinin prezidenti, professor Volfqanq Xermandır.

Universitetdə Azərbaycan, Türkiyə, Rusiya, Ukrayna və digər ölkələrdən tələbələr təhsil ala biləcəklər.

## MÜƏLLİMLİK FƏALİYYƏTİNƏ BAŞLAMAQ VƏ DAYANDIRMAQ QAYDASINA DƏYİŞİKLİK DAXİL OLUB



Təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvilinin sərəncamına əsasən, "Müəllimlik fəaliyyətinə başlamaq və dayandırmaq qaydası"na dəyişiklik daxil olub.

Sərəncama əsasən, qayda məktəbdə müəllim işləmək istəyən, həmçinin dəvət olunmuş və əvəzedici şəxslərə, qanunvericiliklə müəyyən edilmiş qaydaya əsasən məktəbdə fəaliyyətini dayandıran müəllimlərə aiddir.

Şəxs vakant müəllim mövqeyinə daxili və ya açıq müsabiqə əsasında təyin olunur.

Məktəb müəllim olmaq istəyən namizəddən, həmçinin məktəbə dəvət olunmuş, yaxud əvəzedici müəllimdən narkoloji yoxlama haqqında arayış təqdim etməsini tələb edə bilər.

Məktəbdə baza/orta pillənin incəsənət, yaxud idman fənni/fənləri qrupuna müəllimliyə namizəd olan şəxs peşəkar müəllim standartları ilə müəyyən edilmiş tələbləri qane etməlidir. Beləliklə, baza/orta pillənin incəsənət, yaxud idman fənni/fənləri qrupunun müəllimlərindən tələb olunur:

- Tam ümumi təhsil;
- Müvafiq incəsənət, yaxud idman üzrə ali təhsil və ya idman üzrə peşəkar təhsil və Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş qaydaya əsasən müəllimlərin hazırlanması üzrə tədris proqramından keçmiş olmalıdır.

Məktəbdə hərbi fənn/fənlər qrupuna müəllimliyə namizəd olan şəxs peşəkar müəllim standartları ilə müəyyən edilmiş tələbləri qane etməlidir. Beləliklə, hərbi fənn/fənlər qrupunun müəllimi bu tələbləri qane etməlidir:

- Tam ümumi təhsil;
- Uyğun hərbi təhsil və Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş qaydaya əsasən müəllimlərin hazırlanması üzrə tədris proqramından keçmiş olmalıdır.

Başlanğıc pillədə multilinqvistik təhsil üzrə müəllimlik, yaxud baza/orta pillə fənni/fənləri üzrə multilinqvistik təhsil üzrə müəllimliyə namizəd olan şəxs biri gürcü dili olmaq şərti ilə iki dil bilməlidir. Həmçinin onlar peşəkar müəllimlik standartı ilə müəyyən edilmiş tələbləri qane etməlidirlər.

Dəvət olunmuş müəllimliyə namizəd olan şəxsin müvafiq fənn üzrə lazımı kompetensiyası, yaxud uyğun sahədə çalışmaq təcrübəsi olmalıdır.

Əvəzedici müəllimliyə namizəd olan şəxs ən azı milli tədris planı ilə nəzərdə tutulmuş fənn/fənlər qrupu istiqamətində bakalavr dərəcəsinə malik olmalıdır və dəvət olunmuş müəllim üçün müəyyən edilmiş tələbləri qane etməlidir.

İstisnaya əsasən, 2023-cü ilin sonuna qədər bakalavr, yaxud ona bərabər olan akademik dərəcəyə malik şəxs müəllim işləmək hüququna malikdir:

- Müəllim olaraq çalışmağa başladıqdan 2 il müddətində fənn imtahanını verməlidir və müəllimlərin hazırlığı üzrə proqramdan keçməli, yaxud müəllimlərin hazırlığı üzrə tədris proqramının məsafəli kursunu keçməlidir;
- Müəllim çalışana qədər fənn imtahanını verməli və müəllimlərin hazırlığı üzrə tədris proqramını keçmiş olmalıdır.

## PENSİYA YAŞLI MÜƏLLİMLƏR ÜÇÜN NƏZƏRDƏ TUTULMUŞ PUL MÜKAFATI DÖVLƏTƏ NEÇƏYƏ BAŞA GƏLƏCƏK?



2019-cu ilin büdcəsinə edilən dəyişikliklərə əsasən, dövlət pensiya yaşlı müəllimlərə pul mükafatını vermək üçün 95 milyon lari sərf edəcək. Dəyişikliklər layihəsi parlamentə artıq təqdim edilib.

Sənədə əsasən, Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin maliyyəsi 131 milyon lari artırılır və 1,639.5 lari müəyyən edilib.

Məktəbəqədər və ümumtəhsil proqramı ilə nəzərdə tutulmuş məbləğ 95 milyon lari artıb və 845,5 milyon lari təşkil edir.

Hökumət tərəfindən təqdim olunmuş sənəddə qeyd olunduğuna görə, artım təhsil reforması çərçivəsində pensiya yaşlı pedaqoqlara birdəfəlik, kompensasiya formasında verilən pul mükafatına görə nəzərdə tutulub.

Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin məlumatına əsasən, 6500-ə qədər pensiya yaşlı təcrübəçi müəllim artıq sistemi tərk etməklə bağlı istəyini bildirib və onların hər biri 2 illik əmək haqqı qədərində pul mükafatı və ömürlük sağlamlıq sığortası alacaqlar.

Mükafatın verilməsinin konkret tarixi məlum deyil, ancaq nazirlikdən bildiriblər ki, ilkin mərhələdə qeydiyyat olunanlar üçün ayrılmış məbləğ cari ilin oktyabrında veriləcək.

## MÜƏLLİM DƏRSDƏ NƏ QƏDƏR DANIŞMALIDIR?

**Dərsdə müəllimin həddindən artıq danışması şagirdin danışması üçün vaxt qoymur və bu əlverişli deyil.**

**Pedaqoqun nə qədər danışmalı olduğu haqda konkret qayda yoxdur. Ancaq 45 dəqiqəlik dərsin 25 dəqiqəsini müəllim danışırsa və sinifdə 20 şagird varsa, bu o deməkdir ki, hər şagirdə fikrini bildirmək üçün 1 dəqiqə qalır. Niyə müəllimlər dərsdə danışmaq vaxtlarını azaltmalıdırlar? Çünki:**

- Şagirdlər diqqəti itirirlər, bezirlər və dinləmə dərəcəsi azalır;
- Müəllimlər artıq söhbət zamanı adətən şagirdlərə elə məlumatlar verirlər ki, şagirdlər özləri müstəqil şəkildə həmin məlumatları əldə edə bilərlər. Məsələn, qrammatik qaydalar, yeni sözlər və s. Müəllimin çətin terminologiyası şagirdlər üçün bezdirici olacaq və onun tempini izləyə bilməyəcəklər;
- Müəllim dominant rolu oynamamalıdır və şagirdi müsahibə çevirməməlidir. Əks halda şagirdlər öz məsuliyyət paylarını görütməyəcəklər və müəllimin nə zaman nə edəcəyini əvvəlcədən başa düşəcəklər.

**Müəllimin xoşagəlməz söhbəti azaltması üçün strategiyalar:**

- Uşaqlara biliklərini göstərmək imkanı verin. Şagirdlərlə öz nümunələrinə əsasən danışsanız artıq izahat lazım gəlməyəcək.
- Bədən dilindən, mimikalardan, jestlərdən istifadə edin;
- Uşaqlara tapşırıqlarla bağlı müzakirə aparmaq imkanı verin. Məsələn, bir şagirddən xahiş edin ki, suala cavab vermək üçün başqa şagirdi seçsin;
- Asan təlimatlardan istifadə edin;
- Sakitliyə riayət edin! Şagirdlər fərdi çalışan zaman sakitlik vacibdir. Tapşırıqlar arasında müəyyən qədər vaxt verin ki, düşünsünlər və elə cavab versinlər.

**Dərsdə müəllimin çox danışmasının müsbət tərəfləri:**

- Müəllimin çox danışması xarici dili tədris edirsə səmərəlidir, çünki pedaqoq materialı real nümunələrə əsasən izah etdikdə şagirdlərin motivasiyası artır. Şagirdlər üçün bu video və audio qeydlərdə şəxsi maraqları olmayan yad adamları dinləməkdən daha maraqlıdır.
- Tez-tez sorğu aparmaq şagirdin diqqətini çəkmək üçün faydalıdır.
- Şagirdin təşəbbüsü ilə başlanan söhbət şagirdləri cavab verməyə çağırır.
- Dərs başlayan zaman lətifələrin, yaxud maraqlı hekayələrin danışılması şagirdlərə aktivləşmək üçün stimul ola bilər. Hekayələri dinləmək aşağı və yuxarı sinif şagirdləri üçün əyləncəlidir.

## SİNİFDƏ İNTİZAMI NECƏ QORUMALIYIQ?



**Dərsi nə dərəcədə maraqlı və yaxşı planlaşdırmağınızın əhəmiyyəti yoxdur, intizamın pozulması hər şeyi alt-üst edir. Şagirdə qarşı düzgün edilməyən töhmət isə sinifdə atmosferi daha da ağırlaşdıra bilər.**

**"Etaloni.ge" saytı dərsdə qarşıdurmaların qabağını almaq üçün strategiyalar təklif edir:**

- **Pis hərəkətə diqqət yetirin** – Şagirdlərin dərs prosesində nə zaman zərərli hərəkətlər etməyə başlamasına diqqət edin. Məsələn, lövhədə yazdığınız zaman, hansısa şagirdə fərdi kömək etdiyiniz zaman və ya yeni fəallıqlara keçdiyiniz zaman? Bununla gələcəkdə gözlənilən gərginliyi asan aradan qaldıra biləcəksiniz.
- **Qeyri-verbal siqnallardan istifadə edin** – Sizə mane olan şagirdə yaxın getməyin. Onunla göz ünsiyyəti qurun və çalışın dərs materialı ilə bağlı suallar verəsiniz. Bu strategiya yaxşı nəticə verməzsə, çalışın şagirdlərə qarşı daha çox qayğı göstərəsiniz.
- **Maraqlı filmlər və videolar göstərin** – Qarışıqlıq zamanı sakitliyi qoruyun. Şagirdlərə aşağı səslə filmlər göstərin. Uşaq sizi əsəbləşdirə bilər, ancaq siz səsinizi ucaltmayın. Səs kontrolunuzu itirsəniz, onların gözündə hörmətinizi də itirəcəksiniz.
- **Ədalətli olun** – Bəzi uşaqlar səs sala bilər, ancaq siz intizamı kimin pozduğunu müəyyən etməlisiniz.
- **Şagirdin şəxsiyyətinə toxunmayın** – Şagirdin şəxsiyyətinin deyil, hərəkətinin qəbuledilməz olduğunu deməlisiniz. Belə olduqda şagirdlərlə müsbət əlaqəni qoruyacaqsınız.
- **Şagirdləri bir-biri ilə müqayisə etməyin** – Heç vaxt şagirdləri və sinifləri müqayisə etməyin. Məsələn, dərs dediyiniz başqa siniflərdə uşaqların heç vaxt səs salmadıqlarını deməyin.
- **Mənasız hədələri unudun** – Real olaraq istifadə etməyəcəyiniz hədələrdən uzaq durun.

**Ən yaxşısı:**

- **Şagirdə hamının yanında hündür səslə töhmət verməyin** – Qaydanı pozanla ehtiyatla danışın. Aşağı səslə deyilən göstəriş bir sözlə də olsa daha az qıcıqlandırır və belə olduqda digər şagirdlərin çalışmasına da az mane olarsınız.
- **Qarşıdurmanı aradan qaldırın** – Şagirdlər arasında gərginlik hiss edərsinizsə dərs bitənə qədər bu haqda heç nə bildirməyin.
- **Gərginliyin aradan qaldırılması** – Uşaqlar dalaşırsa problemi dərsdən sonra həll edəcəyinizi deyin. Heç vaxt davaya qoşulmayın!
- **Sözünüzü yalnız qaydanı pozana deyin** – Pis hərəkətə görə heç vaxt bütün sinfi günahlandırmayın.

***Səhifəni hazırladı: Aynurə ƏLİYEVA***

# İNSANLIQ LİBASI OLMAYANLARI ELM LİBASI BÜRÜYƏ BİLMƏZ



Bu günün gənclərinin dünənin gənclərini bəyənmədikləri səhnələri ilə dəfələrlə qarşılaşmağım məni bu mövzunu yazmağa vadar etdi.

Yeni nəsil ilə keçmiş nəsli müqayisə edəcək olsaq bunu sadəcə bir yönlü etmək düzgün çıxmaz, ona görə də bu məsələni bir neçə yöndən ələ alsaq daha uyğun olar.

Dünənin gəncləri oturub danışdıqları zaman, keçmiş xatirələrə nəzər saldıqları an hər zaman saflıqla, mehribanlıqla, hüzurla, bilik və bacarıqla necə dövran sürdüklərini anladarkən, müqayisə etdiyimiz bu günün gəncləri isə sabahın yaşlıları olacaqları zaman anladacaq belə xoş xatirələrinin çox nadir olacağı diqqətdən qaçmır.

Dünənin gəncləri hörmət göstərən, qayğı çəkən, qarşılıqsız mərhəmət göstərən bir nəsil ikən onların bu dünyaya mirasçı olaraq gətirdikləri bu günün gənclərində isə bu duyğuların çox az bir qalıntılarına rastlaşmaq olur.

Dünənin gənclərini bəyənməyən bu günün gəncləri əvvəla baxmalıdırlar ki, bəyənmədikləri o nəslin dünyaya gətirdikləri mirasçılarıdırlar və bir də baxmalıdırlar ki, onlarda olan duyğular və daha artığı özlərində varmı. Yəni bəyənilməyən tərəfin bəyənilməməsinin səbəbi onların əskiklərinin olmasını göstərməz, əksinə analiz etdiyimiz zaman dünənin gənclərinin imkan baxımından daha zəif olması, lakin sahiblik baxımından daha zəngin olması diqqətə çarpır – istər duyğu zənginliyi, istər elm, irfan zənginliyi, istərsə də mədəniyyət zənginliyi olsun.

Adi bir misalla aydınlatmaq olar bunu. Məsələn, bu gün elm sahibi olmaq istəyib də elm öyrənməyə gedirəm deyənlər, elmi elm olduğu üçün deyil, bu zamanda elmin arxası ilə getməyin dəb olduğu üçün gedirlər. Yəni getməkdə məqsəd elm qazanmaq deyil, ad qazanmaqdır. Təbii ki, bunu hər kəsə şamil etmək yanlış olar.

Bu gün elm arxası ilə gedənlərin sayı həddindən çox artıb, bu, sevindirici haldır, lakin elm öyrənənlərdə gerçək elmi keyfiyyət varmı?

Elm öyrənərkən öyrənilən elmin sahəsindən asılı olmayaraq əvvəla "həyat elmini" öyrənmək lazımdır.

Bəs bu nədir? Bu, insanlıqdır, vicdandır, mərhəmətdir, qarşılıqsız qayğıdır... Bu cümlənin arxasını saysız kağızlara dayamaq olar, lakin bu qədər kifayətdir.

Elm libası insanlıq libası olmayanları bürüyə bilməz, yəni hər zaman açıqda qalan bir ayıbın var deməkdir. Bu da bir insanı məhv etmək üçün kifayətdir.

Bugünkü elm yalın bir elmdir, soyulmuş, açılmış, sıyrılmış, əsl mənasından qoparılmış vəziyyətdədir.

Əvvəllər elmli-savadlı bir insandır deyildiyi vaxt, o insanın elmə və bir çox şeyə sahib olduğu artıq hər kəs tərəfindən aydın olurdu, lakin indiki dövrdə elmli biridi deyildiyi zaman, o insanda elmin var olduğunu, lakin geri qalan bütün elmin insana qazandırdığı o bər-bəzəyin olmadığını görürük.

Elm ən başlıca insana olğunluq qazandırar, bilik-bacarıq, fərasət qazandırar, mədəniyyət qazandırar, etika qazandırar, bunlardan kənar olan elm isə yalın bir elmdir. Yalın bir elmə bürünməyə çalışmaq isə fırtınada kağıza söykənmək kimidir.

Gəlin mirascı olaraq dünyaya gətirdiyimiz bugünkü gənclərin fırtınada sovrulmalarına izin verməyək, axı fırtına kağızı sağa-sola çırpmaqdan param parça edər. Gəlin gələcək nəslin yalın bir elmlə kifayətlənməsinə müsadə etməyək, bu günün gənclərini duyğusuz, qayğısız buraxmayaq. Axı hamısı sabah sillə kimi üzümüzə geri dönəcək.

Bu günün gənclərinə dolğun bir elm öyrədə biləcək keçmiş nəslin nümayəndələri var.

Bu günün gənclərinə sahib çıxmazsaq yalın elm öyrənən bu günün gəncləri öyrəndiklərini gələcək nəslə ötürməyə başladıqları zaman aqibət necə olacaq, heç düşündükmü bunu?

Əgər göz bəbəyimiz kimi sevdiyimiz övladlarımızın duyğusuz, qayğısız, mədəniyyətsiz, fərasətsiz, bacarıqsız, vicdansız bir elm insanı olmasını istəmirik və onların belə bir cəmiyyətə məruz qalmalarını istəmiriksə gec olmadan bu haqda düşünməliyik.

Axı belə bir dünyada yaşamaq da çətin olar. Yaşanılması çətin olan bir dünyanın sakinləri isə qurtuluşu yalnız ölümdə görər ki, bu da çox yanlış bir seçimdir və bununla da qarşısının alınması çətin olan intihar bəlası dünyanı bürüyər.

Bu gün bizim önəmsəmədiyimiz bəzi məsələlərin bir çoxu intiharın səbəbi ikən bunu illərə dayadığımız zaman başımıza nə fəlakətlərin gələcəyi aşkardır.

Bu gün maddi sıxıntı üzündən, iş yerində yaşadığı problemlər üzündən, ailədə olan problemlər səbəbindən qarşılaşdığımız intiharlar elm libasının insanlıq libası olmayanları bürüyə bilmədiyinin sübutudur.

Dolğun elmə sahib olan nəslin nümayəndələri sıxıntı və stresdən uzaq olarlar.

Gəlin nəslimizi bundan məhrum etməyək.

**Lamiyə Hacıyeva (Eminova)**
Bütün Gürcüstan Müsəlmanları
İdarəsinin Qadınlar Şöbəsinin sədri

# NDI: ƏHALİNİN YARISI KOMMUNAL XƏRCLƏRİ ÖDƏMƏK İQTİDARINDA DEYİL

Milli Demokratiya İnstitutu (NDI) və CRRC Gürcüstan 13-29 iyul tarixlərində keçirilmiş sosioloji tədqiqatın nəticələrini dərc ediblər. 2132 respondentin rəyi öyrənilib. Sorğuda əldə edilmiş nəticələrə əsasən, ölkədə ağır iqtisadi vəziyyətdir və əhali son 5 il ərzində yoxsullaşıb.

• Əhalinin 49%-i hesab edir ki, ölkə yanlış istiqamətdə inkişaf edir. 2010-cu ildən sonra bu, ən aşağı göstəricidir. Yalnız 18 faiz bunun əksini düşünür.

• Əhalini düşündürən əsas məsələlər, əvvəlki illərdə olduğu kimi, iqtisadiyyatla bağlıdır. Sorğunun nəticələrinə görə, əsas problemlər bunlardır:

İş yerləri (48 faiz)
Qiymət artımı və inflyasiya (34 faiz)
Yoxsulluq (33 faiz)
Ərazi bütövlüyü (29 faiz)
Pensiya (22 faiz)
Əməkhaqqı (19 faiz)

• Rəyi öyrənilənlərin 21 faizi fəal şəkildə iş axtaran işsizlər olub.

• Əhalinin üçdə iki hissəsi hesab edir ki, valideynlərinin nəsli daha yaxşı yaşayıb.

• Az qala hər ikinci şəxs (43 faiz) hesab edir ki, son 5 il ərzində daha da yoxsullaşıb və 5 il öncə daha böyük maliyyə imkanlarına malik olub.

• Gürcüstanın hər iki vətəndaşından biri son il yarım ərzində pulu olmadığı üçün heç olmasa bir dəfə kommunal xərcləri vaxtında ödəməyib.

• Rəyi soruşulanların yarıdan çoxu (54 faiz) bildirib ki, onların zərurət yaranacağı təqdirdə 300 lari borc ala biləcəkləri tanışları və yaxın adamları yoxdur.

• Gürcüstan əhalisinin yalnız 10 faizi "qara gün" üçün kənara pul qoya bilib. Maraqlıdır ki, əhalinin daha sıx yaşadığı yerlərdə bu göstərici yüksəkdir – 24 faiz.

• Gürcüstan əhalisinin 70 faizi hesab edir ki, ölkədə iqtisadi bərabərsizlik hökm sürür – yalnız insanların müəyyən qrupları iqtisadi imkanlardan istifadə edə bilir.

• NDI ilk dəfə əhali arasında pensiya islahatları ilə bağlı sorğu keçirib. (Xatırladaq ki, 2019-cu ilin yanvar ayından Gürcüstanda yaşı 40-a qədər olan vətəndaşlar üçün icbari yığım pensiya sistemi fəaliyyətə başlayıb, yaşı 40-dan çox olan insanlar isə bu proqrama qoşulub-qoşulmayacaqları barədə özləri qərar verirlər). Məlum olub ki, yığım sistemində iştirak edən və müəyyən edilmiş məbləğləri ödəyənlər pensiyaya çıxdıqdan sonra yığılmış məbləğdən istifadə edə biləcəklərinə inanmırlar.

• Hakimiyyət nümayəndələrinin iqtisadiyyatdakı problemləri mütəmadi olaraq xarici amillərlə izah etmələrinə baxmayaraq, əhali və müxalifət başqa cür düşünür. Rəyi soruşulanların 84 faizi iqtisadi problemlərdə məhz Gürcüstan hakimiyyətini ittiham edir.

**Mənbə: JAMnews**

## MARNEULİNİN XANCIĞAZLI KƏND SAKİNLƏRİ TƏBİİ QAZLA TAM TƏMİN OLUNACAQLAR



Sentyabrın 26-sı Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövnəq Abdullayev, "Socar Energy Gerogia"nın direktoru Mahir Məmmədov, "Socar Georgia Gas"ın direktoru Azər Məmmədov, Kvemo Kartli qubernatoru Şota Rexviaşvili və Marneuli bələdiyyəsinin icra başçısı Zaur Dərğallı Xancığazlı kəndində yeni inşa edilmiş qazpaylayıcısı şəbəkənin açılışını ediblər.

Tikinti "Socar Georgia Gas" tərəfindən həyata keçirilib. Boru kəmərinin uzunluğu 7400 metrdir.

Qazlaşdırma işləri nəticəsində Xancığazlı kəndində yaşayan 127 ailə təbii qazdan istifadə edəcək. Bu günə olan vəziyyətə görə Kvemo Kartlidə təbii qazdan 117 200-dən artıq ailə yararlanır.

Şota Rexviaşvili Azərbaycanın dövlət və şirkət rəhbərlərinə uzunmüddətli və nəticəli əməkdaşlıq üçün təşəkkür edib və bu kimi tədbirlərin iki ölkə arasında olan dostluq və tərəfdaşlıq münasibətlərini daha da gücləndirməsini qeyd edib.

## AZƏRBAYCANIN GÜRCÜSTANDAKI SƏFİRİ SADAXLI MƏKTƏBİNDƏ OLUB

Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov yeni dərs ilinin başlanması münasibətilə Marneuli rayonunun Sadaxlı kəndində 2 saylı ictimai məktəbə baş çəkib.

Məktəbin direktoru Adil Şərifov bildirib ki, bina 1968-ci ildə inşa olunub və məktəbdə 900-ə yaxın şagird təhsil alır, 80 müəllim çalışır.

Direktor bildirib ki, yeni dərs ili ərəfəsində məktəb daxili imkanlar hesabına kosmetik təmir olunub. O, səfirə məktəbə göstərdiyi diqqətə görə minnətdarlığını bildirib.



D.Həsənov məktəb direktoru ilə söhbət edib, təhsil ocağının qayğıları ilə maraqlanıb.

Səfir məktəb kollektivini və şagirdləri yeni tədris ili münasibətilə təbrik edib.

## QARDABANİDƏ İKİ YENİ UŞAQ BAĞÇASI İSTİFADƏYƏ VERİLİB



Sentyabrın 16-sı Qardabani rayonunun Kalinin və Candar kəndlərində iki yeni uşaq bağçasının açılışı olub.

Açılış mərasimində Kvemo Kartli bölgəsinin qubernatoru Şota Rexviaşvili, Qardabani rayonunun icra başçısı Ramaz Budağaşvili, parlamentin deputatı Savalan Mirzəyev, Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov və digər rəsmi şəxslər iştirak ediblər.

Kalinin kəndində bu günə qədər uşaq bağçası olmayıb. İkimərtəbəli yeni bağça 90 uşaq üçün nəzərdə tutulub. Hazırda müəssisədə 60 uşaq təlim-tərbiyə olunur. Bağçanın inşasına yerli büdcədən 375 min lari vəsait xərclənib.

Candar kəndində istifadəyə verilən yeni bağçada isə iki qrupda 60 uşaq təlim-tərbiyə olunacaq. Binada bundan öncə rayon icra hakimiyyətinin yerli nümayəndəliyi yerləşib. Tikili təmir-bərpa olunaraq bağçaya çevrilib.

Qardabani rayonunun icra başçısının müavini Dünyamalı Hacıyev jurnalistlərə açıqlamasında bildirib ki, hazırda Qaratəhlə və Ağtəhlə kəndləri üçün 300 yerlik bağçanın inşasının ilkin mərhələsi aparılır. Onun sözlərinə görə, məktəbəqədər müəssisənin inşasının bu ilin aprelinə qədər başa çatdırılması nəzərdə tutulub.

D.Hacıyev deyib ki, növbəti illərdə Qardabani rayonunun bütün kəndlərində uşaq bağçaları tikiləcək.

Qeyd edək ki, bu ilin aprelində Qardabani rayonunun Kosalı və Nəzərli kəndlərində yeni uşaq bağçaları istifadəyə verilib.

## MARNEULİ RAYONUNUN BAYDAR KƏNDİNİN İÇMƏLİ SU PROBLEMİ HƏLL OLUNUB

Marneuli rayonunun Baydar kəndi içməli su ilə təmin olunub. Genişmiqyaslı infrastruktur layihəsi çərçivəsində kənddə su quyusu və rezervuar yaradılıb.

Hazırda kənddə 230 abonent içməli su ilə təmin edilir, lakin ehtiyac yaranacağı halda, 400 ailə su ilə təmin oluna biləcək. Layihənin reallaşdırılması üçün yerli büdcədən 174 170 lari vəsait ayrılıb.

Marneuli rayonunun icra başçısı Zaur Dərğallı Baydar kəndində olub. O, kənddə yaşayan ailələri ziyarət edərək onları əhəmiyyətli layihənin başa çatması münasibətilə təbrik edib.

## DMANİSİDƏ İSVEÇRƏ AQRAR MƏKTƏBİ FƏALİYYƏTƏ BAŞLAYACAQ

Sentyabrın 25-i Dmanisi bələdiyyəsinin Sarkineti kəndində "Qafqaz" İsveçrə aqrar məktəbinin təqdimatı keçirilib. Tədbirdə ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı naziri Levan Datunaşvili, Kvemo Kartli qubernatoru Şota Rexviaşvili, İsveçrənin Gürcüstandakı səfiri Patrik Fransen, Dmanisi bələdiyyəsinin rəhbər şəxsləri, sahə mütəxəssisləri və yerli istehsalçılar iştirak ediblər.



Məktəb Gürcüstanın peşəkar təhsil sahəsində əvəzsiz özəl qeyri-kommersiya təşəbbüsüdür.

Kollecin əsas fəaliyyəti heyvandarlıq, süd və süd məhsullarının emalı sahəsində 3 illik peşə proqramından ibarətdir. Bundan əlavə, fermerlər və həvəskarlar qısamüddətli peşə kurslarında iştirak edə biləcəklər. Tədris həm nəzəri, həm də təcrübə yolu ilə aparılacaq. Bu məqsədlə kollecin ərazisində heyvandarlıq ferması və İsveçrə standartlarına uyğun müasir pendir zavodu inşa ediləcək.

Peşəkar müəllimlərin müşahidəsi altında tələbələr fermanın gündəlik işini aparacaq, ferma üçün qidalar hazırlayacaq, laboratoriyada çalışacaq, süd və süd məhsulları hazırlayacaqlar və məhsullar məktəbə aid olan mağazada satılacaq.

Məktəbin infrastrukturu eləcə də 30 tələbə üçün ayrılmış yaşayış korpusu və xarici müəllimlər üçün nəzərdə tutulmuş kiçik ölçülü mehmanxanadan ibarətdir.

Layihə özəl maliyyə təşəbbüsü ilə həyata keçirilir. Həmçinin maliyyə tərəfdaşlarından biri özəl İsveçrə Fondu "Swiss South Caucasus Foundation"dir (SSFC) və fond artıq 20 ildir ki, elm və təhsil sahəsində xidmət göstərir. Layihə Gürcüstanda İsveçrə səfirliyinin dəstəyi ilə həyata keçirilir. Kollec Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyi, Gürcüstan Fermerlər Assosiasiyası ilə fəal əməkdaşlıq edir.

"Qafqaz" İsveçrə aqrar məktəbində tədris prosesi 2020-ci ilin payız semestrindən başlayacaq.

Kollecin məqsədi 10 ildən sonra Gürcüstanda 100 güclü peşəkar fermerin yetişdirilməsidir.

## MARNEULİNİN 1 SAYLI İCTİMAİ MƏKTƏBİNİN YENİ BİNASI İSTİFADƏYƏ VERİLİB

Sentyabrın 16-sı Marneulinin 1 saylı Azərbaycandilli ictimai məktəbinin yeni binasının açılışı olub. 150 şagird üçün nəzərdə tutulan ikimərtəbəli müasir məktəb binasının inşasına dövlət büdcəsindən 1 milyon laridən çox vəsait xərclənib.



Yeni məktəb binasının açılış mərasimində Kvemo Kartli bölgəsinin qubernatoru Şota Rexviaşvili, Gürcüstanın təhsil, elm, mədəniyyət və idman nazirinin müavini Levan Xaratişvili, Marneuli rayonunun icra başçısı Zaur Dərğallı, parlament üzvü Ruslan Hacıyev, Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov və digər rəsmi şəxslər iştirak ediblər.

## KVEMO KARTLİDƏ TƏBİİ ARTIM QEYRİ-SABİTDİR

Gürcüstanın Milli Statistika İdarəsinin hesabatına əsasən, son üç ildə Kvemo Kartli bölgəsində təbii artımla bağlı qeyri-sabit tendensiya müşahidə olunmaqdadır.



2016-cı ildə regionda təbii artım 2 037, 2017-ci ildə 2 342, 2018-ci ildə isə 1 654 nəfər təşkil edib. Son üç ildə ən yüksək təbii artım 2017-ci, ən aşağı təbii artım isə ötən il qeydə alınıb. 2018-ci ildə təbii artımda illik müqayisədə 688 nəfər azalma, 2017-ci ildə isə 305 nəfər artım olub.

2019-cu ilin yanvarın 1-nə olan məlumata əsasən, Kvemo Kartli bölgəsinin əhalisi 433,2 min nəfər təşkil edir. Əhalinin 188,4 min nəfəri şəhər, 244,7 min nəfəri isə kənd yerlərində yaşayır. Regionda hər km2 düşən əhali sıxlığı 67,3 nəfərdir.

2018-ci ildə bölgədə 2 666 nikah, 994 boşanma halı olub.

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 30 SENTYABR 2019-CU İL/ №018 (98)

Yeni YOL

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | იენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

# ELAN



Gürcüstan Gənclərinə Yardım və Maariflənmə Təşkilatı fəaliyyətə başladığı gündən gənclərin maariflənməsinə yönəlmiş bir çox layihələr həyata keçirib. Bu layihələrin əhəmiyyətlisindən biri də **DİL KURSLARI** layihəsidir.

Dil kursları 2006-cı ildən bu yana hər il fəaliyyət göstərməkdədir. Kurslara gürcü dili, ingilis dili, universitetə hazırlıq və kompüter kursları daxildir.

Hər il 50-60 tələbəyə xidmət göstərən kurslarımız bu il də **GÜRCÜ DİLİ, İNGİLİS DİLİ, UNİVERSİTETƏ HAZIRLIQ** və **RİYAZİYYAT** kursları ilə gənclərimizin xidmətindədir. Kurslar 9-ay davam edəcək və dərs ilinin sonunda müvəffəqiyyət əldə edən şagirdlərə sertifikatlar təqdim olunacaq. Kurs müddəti ərzində şagirdlər üçün Vaxtanqisi və Təzəkənd kəndlərindən ödənişsiz olaraq avtobus xidmət göstərəcək.

**QEYD EDƏK Kİ, KURSLAR ÖDƏNİŞSİZDİR**

**GÜRCÜ DİLİ KURSU**

Gürcüstan Gənclərinə Yardim və Maarifləndirmə Təşkilatının nəzdində fəaliyyətə başlayan dil kursları həm bölgədəki gənclərin gürcü cəmiyyətinə inteqrasiyasına dəstək olmaq, həm də onların ali təhsil ocaqlarına qəbul olmalarına dəstək olmaq məqsədi ilə həyata keçirilir. Gürcü dili kursu 4 komponent üzrə tədris metodu həyata keçirir:

1. Oxumaq.
2. Dinləmək.
3. Qrammatika (Yazı).
4. Danışıq.

**İNGİLİS DİLİ KURSU**

Bölgədəki gənclərin beynəlxalq dil olan ingilis dilini bilmələrinə dəstək olmaq məqsədi ilə fəaliyyət göstərən ingilis dili kursu 4 komponent üzrə tədris metodu həyata keçirir:

1. Oxumaq.
2. Dinləmək.
3. Qrammatika (Yazı).
4. Danışıq.

**UNİVERSİTETƏ HAZIRLIQ (MƏNTİQ VƏ RİYAZİYYAT) KURSU**

Bu layihənin həyata keçirilməsində əsas məqsəd şagirdlərin məntiqi təfəkkürünün və riyazi qabiliyyətlərinin inkişaf etdirilməsi və onların ali məktəblərdə təhsillərini davam etdirmələri üçün zəruri olan bilik və bacarıqların əldə olunmasıdır. Şagirdlər universal intellektual (təhsil, sintez, ümumiləşdirmə və s.) əməliyyatları yerinə yetirməyi bacarmalıdırlar. Milli tədris planına uyğun olaraq riyaziyyatda əsas 4 istiqamətə üstünlük veriləcəkdir: ədədlər və əməllər; həndəsə və fəza fiqurları; verilənlərin təhlili; statistika və ehtimal; qanunauyğunluq və cəbr. Bundan əlavə, riyaziyyatdan qazanılan bilik və bacarıqların təbiət elmlərində və başqa sferalarda tətbiqinə də xüsusi üstünlük veriləcəkdir. Gələcəkdə ixtisaslı mütəxəssislərin hazırlanması üçün zəruri olan riyazi biliklərin şagirdlər tərəfindən tam mənimsənilməsi və bu biliklərin həyatda tətbiq olunması üçün lazım olan işlər görüləcəkdir.



Ünvan: Qardabani şəhəri, Kolxoz küçəsi №4
Əlaqə nömrələri: +995 599 54 12 92
+995 568 69 26 60
Email: gymd.ge@hotmail.com

DƏRSLƏR PULSUZDUR

## ALMANİYA GÜRCÜSTANIN ENERJİ SEKTORUNA 8 MİLYON 440 MİN AVRO QRANT AYIRACAQ



Almaniya Yenidənqurma Bankı (KFW) Gürcüstanın enerji sahəsində həyata keçiriləcək islahatların dəstəklənməsinə 8 milyon 440 min avro həcmində qrant ayıracaq.

Müvafiq sazişi Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini David Tvalabeişvili və KFW-nin Cənubi Qafqaz üzrə regional ofisinin direktoru Kalaus Vigel imzalayıb.

Sənədə əsasən, ayrılacaq vəsait enerji effektivliyi, bərpa olunan enerji mənbələri, qanunvericiliyin təkmilləşdirilməsi kimi müxtəlif sahələrin dəstəklənməsinə yönəldiləcək.

D.Tvalabeişvili bildirib ki, KFW-nin dəstəyi enerji sektorunda planlaşdırılan islahatlar baxımından vacib məqsədlərə çatmaq üçün çox faydalı olacaq.

## ÖTƏN İL NİKAHDANKƏNAR 17 375 UŞAQ DOĞULUB



Gürcüstan Milli Statistika İdarəsinin hesabatına əsasən, ötən il Gürcüstanda nikahdankənar 17 375 uşaq doğulub.

Nikahdankənar dünyaya gələn uşaqlar ümumi doğulanların 34%-ni təşkil edib. Hesabatda qeyd olunub ki, nikahdankənar doğum hallarının yüksək səviyyəsi dini nikahların nəticəsidir ki, bunun da heç bir hüquqi əsası yoxdur.

Ölkədə 2016-cı ildə nikah olmadan doğulanların sayı 18 104, 2017-ci ildə 18 689 təşkil edib. 2018-ci ildə rəsmi nikahla dünyaya gələn uşaqların sayı isə 1 394 nəfər artaraq 33 760-a bərabər olub.

2018-ci ildə Gürcüstanda diri doğulanların 26 538-i oğlan, 24 600-ü isə qız olub. Cinsi nisbətə gəlincə doğulan 100 qız uşağına 107,9 oğlan düşüb.

## BU İL GÜRCÜSTAN TURİZMDƏN 396,1 MİLYON DOLLAR GƏLİR ƏLDƏ EDİB



Bu ilin avqust ayında Gürcüstan turizmdən 396,1 milyon dollar gəlir əldə edib. Bu barədə Gürcüstan Milli Bankının analitik hesabatında bildirilib.

İyul ayı ilə müqayisədə ölkənin turizmdən qazancı 21,4 milyon dollar və ya 5,7% artıb.

Bu ilin yanvar-avqust aylarında isə Gürcüstanın turizmdən gəliri 2 226,8 milyon dollar təşkil edib. Gəlirin ən böyük hissəsi avqust, ən az hissəsi isə 164,5 milyon dollar olmaqla yanvar ayının payına düşüb.

## GÜRCÜSTANDA MİKRO HƏBSXANALAR YARADILACAQ

"Gürcüstanda yeniyetmələr üçün mikro həbsxanaların yaradılması ilə bağlı konsepsiya hazırlanır". Bu barədə Gürcüstanın ədliyyə naziri Tea Tsulukiani bildirib.

Nazir deyib ki, 25 yeniyetmənin saxlanıldığı 11 saylı Reabilitasiya Mərkəzinin bağlanılması nəzərdə tutulub.

"Bu müəssisə uğurlu olsa da, sistem digər istiqamətdə inkişaf etdirilməlidir və bu da yeniyetmələr arasında cinayətkarlığa qarşı mübarizədə çox önəmli olacaq", - nazir bildirib.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım Direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.